AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ

# SƏRƏNCAM
№ 63

"26" fevral 2018-ci il

Bakı şəhəri

**"Sənətkar" jurnalı redaksiyasının yenidən təşkil edilməsi haqqında**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sənətkar" jurnalı redaksiyasının adının və təşkilati-hüquqi formasının dəyişdirilərək "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməsi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14 fevral 2018-ci il tarixli 02-25-314/16 nömrəli müraciətini və sədr müavini R.Şahbazovun təqdimatını nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2007-ci il tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.9.2.1, 7.9.2.2-ci bəndlərini və Azərbaycan Respublikası Prezidentinin 4 may 2015-ci il tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında Əsasnamə"nin 3.0.22-ci bəndini rəhbər tutaraq

**qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təqdim edilmiş sənədlər əsasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Bakı bölgə şöbəsində 20.11.2001-ci il tarixli R-166 nömrəsi ilə dövlət qeydiyyatına alınmış "Sənətkar" jurnalı redaksiyasının təşkilati-hüquqi forması və adı dəyişdirilərək, Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ hüquqi aktlarına uyğun olaraq, yenidən təşkil edilməklə "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilsin və onun Nizamnaməsi təsdiq edilsin (əlavə olunur).
2. "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi ünvanı Bakı şəhəri, Nərimanov rayonu, Əlicabbar Orucəliyev küçəsi, 61 müəyyən edilsin.
3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 56 və 57-ci maddələrinə uyğun olaraq "Sənətkar" jurnalı redaksiyasının bütün hüquq və öhdəliklərinin onun hüquqi varisi olan "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyətinə verilməsi haqqında akt tərtib edilsin və təsdiq edilsin. Təhvil-təslim aktının tərtib edilməsi və imzalanması Balakişiyev Şahbaz Şəmməd oğluna həvalə edilsin.
4. "Sənətkar" jurnalının çevrilmə yolu ilə yenidən təşkili nəticəsində "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması barədə mətbuatda elan verilsin.
5. Hüquq şöbəsi "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikası Vergilər Nazirliyində dövlət qeydiyyatına alınmasını və dövlət qeydiyyatına alındıqdan sonra zəruri sənədlərin surətinin

(Nizamnamə və dövlət reyestrindən çıxarış) Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinə təqdim edilməsini təmin etsin.

6. Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi bu sərəncamın surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarət sədr müavini R.Şahbazova həvalə edilsin.

**Sədr** **K.Həsənov**